# Mədəniyyət

# Cahana sığmayan şair

***Görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin dillər əzbəri olan bir beytində deyilir:***

*Məndə sığar ikən cahan,*
*Mən bu cahana sığmazam!*

Fotomüxbirimizin Sumqayıt şəhərindən lentə aldığı bu əzəmətli abidəyə və zümrüd aləmə baxdıqca qəribə duyğular keçirirsən. Qəlblərdə abidələşmiş, dərin məzmunlu poeziyası ilə ədəbiyyatda əbədi yaşamaq hüququ qazanmış, uzaq Hələbdə uyuduğu torpağı ziyarətgaha çevrilmiş Nəsiminin sovet dövründə təqdimatı çox ziddiyyətli olmuşdu. Onu allahsızlar sırasına qoşmuşdular. Halbuki yuxarıda nümunə gətirdiyimiz beytinin də sonrakı izahatlarında bildirilir ki, Nəsimi, əslində, "məndə sığar iki cahan" deyirmiş. Son illərin məlumatlarından da bəlli oldu ki, böyük şairin əbədi uyuduğu məkanda onu Şeyx Nəsimi çağırırmışlar. Bir fərəhli fakt da var ki, bəzi klassik şairlərimizdən fərqli olaraq, Nəsiminin şəcərəsi bu gün davam etməkdədir. Hələbdə bu unudulmaz ustadın nəsli-nəcabəti yaşamaqdadır. Cismi və ruhu zamanlara, məkanlara bölünmüş dahi şairin gənclik şəhəri Sumqayıtda ucaldılan möhtəşəm abidəsi də bu yaşıllığın qoynunda nə qədər mənalı və müdrik görünür.

***Foto A.Məmmədovundur***




## Türkiyəli rəssamın Bərdədə sərgisi

Türkiyəli rəssam Sefa Fazlıoğlu Yıldırımın Bərdədə rəsm sərgisi açılmışdır. Açılış mərasimi ilə bağlı keçirilən toplantıda rayon icra hakimiyyəti başçısının birinci müavini Məzahir Qasımov çıxış edərək Azərbaycan və Türkiyə dövlətləri arasında yüksələn xətlə inkişaf edən siyasi, iqtisadi və mədəni əlaqələrdən danişmış, bir millətin mövcud olan iki dövləti arasında təməli xalqımızın ulu öndəri Heydər Əliyev tərəfindən qoyulan dostluğun, qardaşlığın sarsılmaz olduğunu vurğulamışdır.

Mərasimdə çıxış edən rəssam Sefa Fazlıoğlu bərdəli sənətsevərlərlə görüşdən məmnunluğunu bildirmişdir.

Bərdə Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Soltan Həsənov isə çıxışında qeyd etmişdir ki, bu, Bərdədə keçirilən ilk rəsm sərgisidir. Təməli yeni qoyulan bu ənənə uğurla davam etdiriləcəkdir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## "Qanun ül-ədəb" lüğətinin fotosurəti tapılıb

Bu günlərdə XII əsrdə yaşamış Azərbaycanın dahi alimi və ensiklopediyaçısı Əbülfəzl Hübeyş Tiflisinin ərəb və fars dillərində tərtib etdiyi "Qanun ül-ədəb" lüğətinin foto-surəti tapılaraq Azərbaycana gətirilib.

Tərtibatın və materialın dolğunluğu, həmçinin ərəb və fars dillərinə olan tələbat sayəsində bu əsər böyük şöhrət qazanmış və zamanında dəfələrlə üzü köçürülmüşdür. Əsərin çoxsaylı nüsxələrinin dünyanın böyük kitabxanalarında və əlyazmaları fondlarında saxlanması buna sübutdur.

"Qanun ül-ədəb" qafiyə tərzində yazılmış orijinal əsərdir. Qırx min sözü özündə cəmləşdirən bu lüğət sait və samitlərin sıralanması əsasında sistemləşdirilib.

*Uşaqlar üçün poetik töhfə*

# Söz ağacının meyvələri



***Ölkə Prezidenti İlham Əliyevin sərəncamı ilə 2009-cu il Uşaq ili elan edilmişdir. Uşaqlara diqqətin daha da artırılması, onların maddi və mənəvi cəhətdən kamilləşməsi yolunda müəyyən işlərin həyata keçirilməsi müntəzəm davam etməkdədir. Təbii ki, uşaqlara göstərilən qayğının içində təhsil və dərslik, ədəbiyyat məsələləri də öz əksini tapmaqdadır.***

Mütəxəssislər bəzən haqlı olaraq bir fikri çox vurğulayırlar ki, əvvəlki dövrlərdən fərqli olaraq, son vaxtlar uşaq ədəbiyyatında bir zəiflik hiss olunur. Belə ki, ötən zamanlarda olduğu kimi, uşaqlar üçün mükəmməl hekayələr, nağıllar, şeirlər yazılmır. Yazılanlar da ya bədii və sənətkarlıq cəhətdən zəif olur, ya da uşaq psixologiyasına, yaşına uyğun gəlmir. Xüsusilə də orta məktəb dərsliklərində elə şeirlərə, mətnlərə rast gəlinir ki, nəinki şagirdlər, elə böyüklər üçün də anlaşılmaz olur.

Təsadüf elə gətirdi ki, orta məktəbin Əlifba, Ana dili kitablarını vərəqləyərkən orada bir şairin imzası diqqətimizi cəlb etdi. Bu, **Rafiq Yusifoğlu** idi. Həqiqətən də müəllifin şeirləri maraqlı və yaddaqalandır. Bu səbəbdən də imzası oxuculara yaxşı tanış olan, onlarla kitabın müəllifi Rafiq Yusifoğlunun uşaqlarla bağlı qələmə aldığı bir sıra kitabları, topluları nəzərdən keçirdik. Fərəhləndirici bir faktın şahidi olduq ki, bu müəllifin Azərbaycan poeziyasında özünəməxsus yeri və dəst-xətti var. Təkcə balacalar üçün deyil, bütövlükdə hər kəs üçün mükəmməl və gözəl şeirlər yazmaqdadır. Belə bir aforizm var: **"Şair söz ağacıdır"**. Sizə haqqında danışacağımız bu "söz ağacı"nın çox yaddaqalan, unudulmayan töhfələri var. Sadəlik, təbiilik, uşaq psixologiyasına dərindən bələdlik Rafiq Yusifoğlu şeirlərinin başlıca məziyyətlərindəndir. Əsərlərində dərin məzmun, ideya və fikir var.

Əlinə qələm alan gündən ömrünü söz uğrunda girov qoyan Rafiq Yusifoğlu respublikanın əməkdar mədəniyyət işçisidir. Onu bəzən təqdim edəndə çətinlik çəkirsən. Ədəbiyyatşünas-alim, tərcüməçi, dramaturq, şair, pedaqoq, jurnalist və nəhayət, uşaqlar üçün çap edilən "Göyərçin" jurnalının baş redaktoru olan Rafiq Yusifoğlu bəlkə də hər gün gördüyümüz, səmimiyyətlə salamlaşdığımız, amma böyük poetik dünyasından ətraflı məlumatımız olmayan istedadlı söz sahibidir. Bioqrafiyasına nəzər salarkən maraqlı faktların şahidi olursan. 1985-ci ildən "Göyərçin" jurnalında müxtəlif vəzifələrdə çalışan Rafiq Yusifoğlu həm Sumqayıt, həm də Azərbaycan dövlət pedaqoji universitetlərinin professorudur. Bir alim kimi tədqiqat obyekti də məhz Azərbaycan poeziyası olub. Poema janrının inkişaf problemlərinə, sənətkarlıq xüsusiyyətlərinə aid elmi araşdırmalar aparıb. Bu sahənin tədqiqatı ilə əlaqədar həm namizədlik, həm də doktorluq dissertasiyaları müdafiə edib. Neçə-neçə şeir kitabının, monoqrafiyanın, dərsliyin, publisistik topluların, tərcümələrin müəllifidir. Əsərləri bir sıra dillərə tərcümə olunub, şeirlərinə mahnılar bəstələnib. Azərbaycan Dövlət Televiziyasının Qızıl Fondunda saxlanılan "Qəm karvanı" və "Bütün Azərbaycan əsgər olmalı" adlı televiziya tamaşalarının müəllifidir.

Onun ömür karvanının yükü poeziya inciləridir. Həqiqətən də Rafiq Yusifoğlunun qələmindən çıxan hər bir şeir nümunədir, dərin poetik məzmuna, sənətkarlıq xüsusiyyətlərinə malikdir. Amma biz bu yazımızda Rafiq Yusifoğlunun məhz uşaqlar üçün qələmə aldığı şeirlərdən söz açacağıq. Nədir diqqətimizi cəlb edən? "Yurdum, yuvam", "Ətirli düymələr", "Ocaq yeri", "Aylı cığır", "Qəm karvanı", "Həsrət köçü", "Şirin yağış" və başqa kitabları ilə ədəbi ictimaiyyətin rəğbətini qazanan Rafiq Yusifoğlu həm də "Çiçək yağışı" adlı bir kitabın müəllifidir. Şairin bu kitabında əsasən uşaq şeirləri toplanıb. Duzlu-məzəli, tez yadda qalmaq qüdrətinə malik olan bu şeirlərdə əsl uşaq dünyası var.

Təqdirəlayiq haldır ki, Rafiq Yusifoğlu "Göyərçin"in kitabxanası" seriyasından uşaqlar üçün rəngli, nəfis tərtib olunmuş toplular çap etdirir. Hər bir toplunun öz mövzusu var. Müəllif çalışıb ki, bu toplularda işıq üzü görən yazılar uşaqların bilik və məlumatlarını daha da zənginləşdirsin, onların duyğu və düşüncələrinə təsir etsin, maraq dünyasına uyğun gəlsin və yadda qalsın. Demək olar ki, müəllif bu istəyinə nail olmuşdur. Bu toplular adi poetik nümunələrin bir araya gəldiyi nəşrlər deyil və təkcə uşaqlar üçün yox, böyüklər üçün də maraq kəsb edir. Məsələn, **"Ulu yurd yerləri"** adlı topluda vətənimizin qədim yaşayış yerlərindən söhbət açılır. Bu kitab tariximiz haqqında uşaqlara konkret məlumat verir. Qobustandan başlamış Qəbələyə kimi qədim yaşayış məskənlərindən danışılır. Diqqətçəkən bir məsələ də var ki, adı yalnız tarixdə qalan, özü isə xarabalığa çevrilmiş, bəzən də unudulmuş şəhərlər haqqında da uşaqlara maraqlı məlumatlar verilir. Məsələn, Şabran, Astabad, Şortəpə, Çardaxlı yaşayış yerləri haqqında da uşaqlara maraqlı bilgilər çatdırılır. Bu yazıların təsirini artıran vasitələrdən biri hər bir mətnə uyğun rəsmlərin çəkilməsidir.

**"Günlərimiz, aylarımız"** adlanan topluda isə ilin əlamətdar günlərinə şeirlər həsr edilib. Məsələn, "Orucluq bayramı", "Qurban bayramı", "Təzə il", "8 Mart", "Novruz bayramı" kimi mərasimlərlə bağlı şeirlərlə yanaşı, tariximizdə işıqlı və qara səhifələri əks etdirən günlər haqqında da poetik nümunələr diqqət çəkir. Uşaqlar bu şeirləri əzbərləməklə həm həmin günləri yadda saxlayır, həm də gözəl bir şeirin məzmunu ilə tanış olurlar. Ramazan bayramı ilə bağlı yazılan şeirin son bəndinə fikir verək:

*İnsana yaraşarmı*
*Tamahına qul olsun?*
*Qəlbi saf olanların*
*Orucu qəbul olsun!*

**"Ana dilim"** adlı toplu daha maraqlıdır. Burada ana dilimizin özündən tutmuş Əlifba kitabına, fonetikaya, hətta nitq hissələrinə, cümlə üzvlərinə, durğu işarələrinə, eləcə də arxaikləşmiş sözlərə aid şeirlər var. Bu şeirlərin hər biri öyrədici mahiyyət daşıyır. "İsim" adlı şeirə diqqət yetirin:

*Bu dünyada nə varsa:*
*Ağac, torpaq, daş, adam -*
*Hər şey, hər şey isimdi,*
*İsim addı, mən adam.*
*Budaq mənəm, bar mənəm,*
*Alma, heyva, nar mənəm.*
*Həm tikan, həm güləm mən,*
*Qarışqayam, filəm mən.*
*Həm quzuyam, həm otam,*
*Həm suyam, həm də odam.*
*Maşın mənəm, at mənəm,*
*Quş mənəm, qanad mənəm,*
*Günəş mənəm, Ay mənəm,*
*Bulaq mənəm, çay mənəm.*
*Səmayam, ulduzam mən,*
*Oğlanam mən, qızam mən.*
*Ocaq mənəm, köz mənəm,*
*Çörək mənəm, duz mənəm.*

Bu topluda, həmçinin, cinaslı şeirlər də verilib. Uşaq təfəkkürünü inkişaf etdirmək baxımından bu nümunələrin əhəmiyyəti böyükdür. Həm uşağın dili inkişaf edir, həm də eyni sözlərin ayrı-ayrı məna daşıdığını da anlaya bilir. Məsələn:

*Nə soruşsan, Qara dinməz,*
*Adı qalıb qaradinməz.*
***
*Evimdədi Gülgəzim,*
*Niyə çöldə gül gəzim?*
***
*Tutmaq üçün bu qurdu,*
*O tələni bu qurdu.*

Ayrı-ayrı əşyalar haqqında yazılan şeirlər də çox mənalı və lakonikdir.

Rafiq Yusifoğlunun **"Zamanın qatarı"** adlı toplusunda isə fəsillər haqqında şeirləri toplanıb. Zamanı qatara bənzədən müəllif hər fəsli bu qatarın bir vaqonu adlandırıb. "Hər vaqonun isə üç kupesi var. Hər ay bir kupedir. Hər kupedə 28, 29, 30, ya 31 gün əyləşir. Günlərin içində saatlar, saatların içində dəqiqələr, dəqiqələrin içində saniyələr yol gedir". Bax beləcə, zamanın qatarı şeirlərə çevrilir. Bahar, yay, payız, qış öz rənginə uyğun libas geyərək balaca oxucuların yaddaşında dərin iz salır. Hər bir şeirin özünün mənası və məzmunu var. Məsələn, "Payız" şeiri:

*Çən yığılıb indi uca dağlara,*
*Gəldi payız bağçalara, bağlara.*
*Çöldə çiçəklər saralıb soldular,*
*Bağda xəzəllər nə qədər boldular!*
*Yarpağını tökdü ağaclar yerə,*
*Sapsarı paltar geyinib dağ-dərə.*

Gözlərimiz önündə qızıl payızın mənzərələri açılır.

Rafiq Yusifoğlunun növbəti toplusu **"Yollar"** adlanır. Bu da təsadüfi deyil. Həqiqətən də insan həyatını yolsuz təsəvvür etmək qeyri-mümkündür. Yol insanı harasa aparır. Yol həm də mədəniyyətin əsas göstəricilərindən biridir. Yolla bağlı müxtəlif müdrik fikirlər, aforizmlər də var. Elə ifadələr var ki, onların mənası daha dərindir. Məsələn, yola salmaq, yoluna qoymaq, yoldan çıxarmaq, yola vermək, yola gətirmək. İçində "yol" sözünün olmasına baxmayaraq, bu ifadələrin hərəsinin məhz öz mənası var. Cığırların böyük yollara birləşməyi, şose yolları, dəmir yolları, hava yolu, dəniz yolu - bütün bunlar haqqında yaddaqalan şeirlər diqqəti cəlb edir. Xüsusilə də yol göstəriciləri və işıqfor haqqında yazılan şeirlər daha maraqlıdır. Toplunun sonluğu daha təsirli başa çatır: "Dünyada yollar çoxdur. Ancaq təəssüf ki, ulu yurd yerlərimizə gedən yollar üzümüzə bağlanıb. Düşmən tapdağı altında qalan torpaqlarımızın gözü igid oğulların, qızların yoluna dikilib..." Bu fikirdən sonra isə müəllifin "Yol" adlı şeiri əsil çağırışdır, vətən harayıdır.

*El yolunda ocaq ol,*
*Yad gözünə bıçaq ol.*

Növbəti toplunun adı isə **"Qızıl balıq"** adlanır. Burada dünya xalqlarının nağılları toplanıb. Rafiq Yusifoğlu ingilis, monqol, Braziliya, island, Norveç, hind, Koreya və digər xalqların folklorundan etdiyi tərcümələri uşaqlara təqdim edir. Bu da kiçik oxucuların dünya ədəbiyyatından xəbər tutmasına kömək edir.

Uşaq ədəbiyyatı ilə bağlı Rafiq Yusifoğlunun gördüyü işlər çoxdur. Həqiqətən də qələm dostumuz bu sahədə özünəməxsus cəfakeşlik göstərir. Onun yaradıcılığı ilə bağlı fikir söyləyən mütəxəssislər bildirirlər ki, Rafiq Yusifoğlu həm uşaq mətbuatının naşiri kimi səmərəli iş aparır, baş redaktoru olduğu "Göyərçin" jurnalında uşaq ədəbiyyatının nümunələrini dərc edir, həm də dünya folklorunu balaca oxuculara çatdırır. Digər tərəfdən də alim-publisist kimi səmərəli fəaliyyət göstərir. İnsan mənəviyyatı haqqında, təbiət, vətən mövzusunda poetik əsərlər yaradır.

***Flora XƏLİLZADƏ,***
***"Azərbaycan"***

*Kino tariximizdən*

# Salnamədən gələn səslər

Kinoşünas, əməkdar mədəniyyət işçisi **Aydın Kazımzadə** uzun illər Azərbaycan kino tarixinin salnaməsi üzərində işləyərək filmlərin izahlı kataloqunu (iki cilddə) hazırlayaraq oxuculara təqdim etdi. Təqdirəlayiq haldır ki, müəllif müxtəlif illərdə ölkəmizdə istehsal olunmuş bədii və cizgi filmlərini xronoloji ardıcıllıqla qruplaşdırmışdır. O bu sahədə böyük fədakarlıq göstərmişdir. Müxtəlif kinostudiyalarda, muzeylərdə, eləcə də kino işçilərinin şəxşi arxivlərində çalışaraq maraqlı məlumatlar, fotoşəkillər toplayıb üzə çıxarmışdır. "Azərbaycan kinosu" adlanan ikicildlikdən həm mədəniyyət və incəsənət işçiləri, kino mütəxəssisləri, həm də tələbələr faydalana bilərlər.

## "Sevil"



Bu il 80 yaşı tamamlanan "Sevil" filmi böyük dramaturq Cəfər Cabbarlının eyni adlı pyesinin motivləri əsasında çəkilmişdir. Bu səssiz filmin rejissoru A.Bəynəzərov, ssenari müəllifi Cəfər Cabbarlıdır. Sevil rolunu ilk azərbaycanlı kinoaktrisa İzzət Orucova yaradıb. Məlumat üçün deyək ki, İzzət Orucova sonralar tədqiqatla məşğul olaraq ömrünü elmə bağlayıb. Müqtədir aktyor Ağasadıq Gəraybəyli isə Balaşı təqdim edib. Filmdə Mustafa Mərdanov, Lətif Səfərov və başqaları çəkilmişlər.

Filmdə əsas mövzu qadın azadlığıdır. Sevil savadsız bir qadındır. Ər evində hər cür təhqirə, əzaba məruz qalır. Əri Balaş ona ömür-gün yoldaşı kimi deyil, qul kimi baxır. Münasibətlərində meşşanlıq, nadanlıq duyulur. "Sevil" Azərbaycan kino tarixinin şərəfli səhifələrindən biridir.

## "Kəndlilər"



"Sevil"dən 10 yaş kiçik olan "Kəndlilər" filminin rejissoru Səməd Mərdanovdur. Film Azərbaycanda gedən inqilabi hərəkatdan və o dövrdə baş verən çevrilişlərdən, hadisələrdən bəhs edir. Səməd Mərdanov ali kino təhsili almış ilk professional azərbaycanlı kinorejissordur. Maraqlıdır ki, bu film unudulmaz kino fədaisinin ilk müstəqil işidir.

Tarixi-inqilabi mövzuda çəkilmiş bu filmdə o dövrün çox məşhur aktyorları - Ələsgər Ələkbərov, Sidqi Ruhulla, Rza Əfqanlı, Möhsün Sənani, Mustafa Mərdanov, Rza Darablı, Atamoğlan Rzayev, Mikayıl Mikayılov, Əlisəttar Məlikov, Əli Qurbanov, Tamara İsgəndərova və b. iştirak edib.

Toxunduğu mövzudan asılı olmayaraq bu film Azərbaycan kino tarixinin yaddaqalan sənət incilərindən biridir. 70 ildir ki, bu filmə maraqla baxılır.

***Bəhruz NİFTƏLİYEV,***
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin magistrantı***

*Yeni xəbərlər*

## Muzeylərin internet saytları hazırlanır

Bu ilin sentyabrından Azərbaycanın muzeylərinin böyük bir hissəsi barədə məlumat internet saytlarında yerləşdiriləcək. İnternet səhifələri ilə təmin olunacaq muzeylər arasında N.Nərimanovun, M.S.Ordubadinin, C.Cabbarlının, C.Məmmədquluzadənin ev-muzeylərinin də adları var. Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsindən bildirilir ki, muzey fondlarının bazaları əsasında elektron kataloqların yaradılması işi də aparılıb. Mərkəzləşdirilmiş muzey-məlumat sisteminin təşkili üçün isə Bakının muzeyləri kompüter və ixtisaslaşmış proqramlarla təchiz olunub. Qeyd edək ki, muzey işi sahəsində islahatların həyata keçirilməsi prosesi Prezident İlham Əliyevin müvafiq sərəncamından sonra intensivləşib.

## Masallı rayonunda son tunc və ilk dəmir dövrlərinə aid qəbir aşkar edilmişdir

Masallı rayonunun Təzə Alvadı kəndində son tunc və ilk dəmir dövrlərinə aid qəbir və zəngin maddi-mədəniyyət nümunələri aşkar edilmişdir.

Azərbaycan Milli Elmər Akademiyasının (AMEA) Arxeologiya və Etnoqrafiya İnstitutu "Cənub-Şərqi Azərbaycanın arxeoloji tədqiqi" arxeoloji ekspedisiyasının rəhbəri Abuzər Ələkbərov bildirmişdir ki, torpaq qəbir Masallı rayonunun Təzə Alvadı kənd sakini Habil Zeyniyevin həyətində quyu qazılarkən 1,7 metr dərinlikdə aşkar edilmişdir.

Ekspedisiya rəhbərinin sözlərinə görə, uzunluğu 3 metr, eni 1,5 metr, dərinliyi 2 metr olan və eramızdan əvvəl XIV əsrdən bizim eranın 8-ci yüzilliyinədək olan dövrə aid bu qəbir sərkərdəyə məxsusdur.

Qazıntılar zamanı qəbirdə yeni arxeoloji materiallar - əsləhə, 2 xəncər, döyüş yabası, 80 santimetr uzunluqda qılınc, ox ucluqları, gildən müxtəlif formalı məişət qablarının qalıqları, cənazənin üst hissəsində isə 4 ədəd qızıl düymə aşkar edilmişdir. Qəbirdəki 10 santimetr qalınlığındakı kömür qalıqları isə cənazənin altında od qalanması ehtimalını irəli sürməyə əsas verir.

Yeni arxeoloji tapıntılar laboratoriya şəraitində müayinə edildikdən sonra onların tərkibini öyrənmək üçün analizlər və tədqiqat işləri aparılacaqdır.